Səh. 2 Biz hələ avtobus minməyiriz – Azər Musaoğlu

Səh. 5 Uçan divarların xatirələri – Esmira Ələkbərli

Səh. 5 Azərbaycan qadını – milli ruhumuzun memarı – Leyla Yusifova

Səh. 6 Avropa çempionatı günlərinə sözardı – Afiq Muxtaroğlu

Səh. 2 Təmizlik imandandır – Aytən Fətullayeva

Səh. 4 MƏKTƏBLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ QAYDASINDA DƏYİŞİKLİK EDİLİB

Səh. 7 Xatirələr – Aleksandre Orbeliani



İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUL
2024-CÜ İL
№ 13 (208)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## PREZİDENT Aİ-NİN GÜRCÜSTANIN İNTEQRASİYASINI DAYANDIRMAQ QƏRARINA GÖRƏ HÖKUMƏTİ İTTİHAM EDİB



Gürcüstan Prezidenti Salome Zurabişvili Avropa İttifaqının (Aİ) Gürcüstanın inteqrasiyasını dayandırmaq qərarına görə hökuməti ittiham edib.

Dövlət başçısı Gürcüstanla bağlı mənfi qərarlara görə hökumətin məsuliyyət daşıdığını, bütün bunların hakim “Gürcü Arzusu” rəsmilərinin anti-Avropa, anti-Qərb ritorikasına cavab olduğunu qeyd edib.

Zurabişvili ABŞ-nin Gürcüstanla hərbi təlimləri ləğv etməsindən sonra Aİ-nin Gürcüstan Müdafiə Nazirliyi üçün nəzərdə tutulmuş 30 milyon avronu dondurmasının hakim partiyanın Gürcüstanın dostlarına qarşı düşmən siyasət yürütməsinin nəticəsi olduğunu vurğulayıb.

## GÜRCÜSTAN XARİCİ İŞLƏR NAZİRLİYİ SEÇKİLƏRLƏ BAĞLI XARİCDƏKİ VƏTƏNDAŞLARA MÜRACİƏT EDİB



Gürcüstanın Xarici İşlər Nazirliyi (XİN) parlament seçkiləri ilə əlaqədar xaricdə yaşayan vətəndaşlara müraciət edib. Bu barədə XİN açıqlama yayıb.

Müraciətdə bildirilir ki, iyulun 3-nə olan məlumata görə, xaricdə konsulluq qeydiyyatında olan 62,4 min yetkin Gürcüstan vətəndaşı parlament seçkilərində səsvermə hüququna malikdir.

**“Seçkilərdə səsvermədə iştirak etmək üçün konsulluqda qeydiyyatdan keçmək mütləqdir. Gürcüstan vətəndaşları 2024-cü il oktyabrın 7-dək konsulluqda qeydiyyatdan keçməlidirlər”,** – deyə müraciətdə qeyd olunub.

## ALMANİYA GÜRCÜSTANLA MÜDAFİƏ SAHƏSİNDƏ TƏRƏFDAŞLIĞI DAYANDIRIB



Almaniya Gürcüstanın Avropa İttifaqına (Aİ) qoşulmasını istəyir, lakin bunun üçün Gürcüstan standartlara cavab verməlidir. Bunu Almaniyanın Gürcüstandakı səfiri Piter Fişer deyib.

O, üzvlük prosesinin məhz Gürcüstan hökumətinin kursuna görə dayandırıldığını qeyd edib. Səfir Almaniyanın Gürcüstanla yeni maliyyə öhdəlikləri qəbul etmədiyini, alman ordusunun Gürcüstanla tərəfdaşlıqda iştirakını dayandırdığını əlavə edib.

Qeyd edib ki, Berlin Gürcüstanla bağlı digər addımları nəzərdən keçirir.

Piter Fişer Almaniyanın buna qədər ABŞ ilə birlikdə Gürcüstanın ən yaxşı müdafiə tərəfdaşı olduğunu deyib.

*“Biz vəziyyəti izləyirik və müvafiq qərar qəbul edəcəyik”,* – Fişer bildirib.

## “AXALİ”, “DROA” VƏ “QİRÇİ” PARTİYALARI SEÇKİLƏRDƏ BİRGƏ İŞTİRAK EDƏCƏKLƏR



Gürcüstanda parlament seçkiləri öncəsi daha bir müxalifət birliyi yaranıb. “Axali”, “Droa” və “Qirçi – daha çox azadlıq” partiyaları oktyabrda keçiriləcək seçkilərdə birgə iştirak edəcəklərini bəyan ediblər.

Eyni zamanda, “Lelo” partiyası ilə də danışıqlar aparıldığı, lakin razılıq əldə olunmadığı qeyd olunub.

Qeyd edək ki “Axali” partiyasını bir neçə ay əvvəl müxalif Vahid Milli Hərəkatın keçmiş lideri Nika Melia və müxalif “Mtavari Arkhi” telekanalının təsisçisi Nika Qvaramiya təsis ediblər.

“Droa” partiyası 2021-ci ildə Rusiyanın ən qızğın əleyhdarlarından biri olan, atasının müəllif hüquqlarına görə Rusiya Federasiyasından qonorar alan Yelena Xoştariya tərəfindən təsis edilib.

Zurab Caparidzenin “Qirçi – daha çox azadlıq” partiyası 2020-ci ildə yaradılıb və həmin il parlament seçkilərində 2,89 faiz səs toplayıb.



# BİZ HƏLƏ AVTOBUS MİNMƏYİRİZ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Əcnəbilər seyrə balonlarla çıxır, biz hələ avtobus minməyiriz. Avtomobilin yerinə avtobus yazsaq, yəqin ki, ölməz şairimiz Mirzə Ələkbər Sabirin böyük ruhu inciməz.

Dünyanın kosmosa turist səyahəti söhbəti fonunda bizim rayondan paytaxta (dəqiq desək: Qardabanidən Tbilisiyə) və ya əks istiqamətdə gedib-gəlməyimiz dözülməz əzaba çevrilib. Yayın istisində "marşrutka" dediyimiz bu cəhənnəmin qır qazanı olan mikroavtobuslarla rayondan paytaxta gedib çıxana kimi elə bu dünyadaca qır qazanının dadını görmüş olur müasir insan (Müasir insanın dərdinə bax).

Qışda soyuducu, yayda təndir olan bu "marşrutkaların" hələ bir qəzəbli, həmişə narazı, aqressiv sürücüsü də var ki, sərnişinlərlə elə davranır, elə bil sərnişinləri toz-torpaqlı, oturacaqları dar, taraq-turuqu adamın başını dəng edən, basabası adamın mədəsindəkini udlağına kimi qaldıran qırıq-sökük "marşrutkada" deyil, pulsuz, öz belində daşıyır.

Bu "veçni nedavolnı" qəzəbli sürücülər bu qır qazanına adam çox yerləşsin deyə əlavə oturacaqlar artırıb əzabı çoxaltmaq üçün yerləri daraldırlar. Boyu bir metr altmış santımetrdən uzun olanlar bu oturacaqlara yerləşmirlər. Əgər osteoxondrozun, revmatizman, ürək-damar və digər xroniki xəstəliklərin varsa, vay halına, mənzilə çatana kimi deformasiyaya uğramış olursan. Qismətinə oturmaq düşmədisə bu əzabı bir saat ayaq üstə çəkməli olursan. "Marşrutkadan" düşəndə də boynunu 15-20 dəqiqə düzəldə bilmirsən, sual işarəsinə oxşayırsan. Əgər pəncərələr açılan deyilsə 20-25 adamın ciyərində turşudub buraxdığı karbon dioksidlə nəfəs alırsan, oksigen çatışmazlığından dodaqlarının, gözlərinin ətrafı göyərir, başın gicəllənir, halzıslayırsan. Ağzın nədir saxladıb düşən sərnişindən 70-80 metr sonra sən də saxladasan, sürücü vulkan kimi bir ah-of püskürəcək ki, bəs bayaq saxlamışdım, düşəydin da. Ya gərək səndən əvvəl düşən sərnişinlə bərabər düşüb mənzilinə xeyli piyada gedəsən, ya da gərək səndən əvvəl düşən sərnişinin düşdüyü yerdən ən azı 1 kilometr uzaqlaşıb elə düşüb yenə mənzilinə xeyli piyada gedəsən ki, sürücü narahat olmaya, xətrinə dəyməyəsən (Heyvanına şükür, İlhai!) Ən pisi də odur ki, əgər axşam saat 8-ə qədər bu "marşrutkalara" çatdırdın çatdırdın, çatdırmadınsa paytaxtda qalası olursan, axşam saat 8-dən sonra paytaxtla rayonun əlaqəsi kəsilir, Berlinə uçmaq Qardabaniyə getməkdən daha asan olur (Biz bu "marşrutkalarla" rayondan paytaxta və ya əskinə, adam kimi gedib-gələ bilmirik, görəsən Avropanın harasına kimi gedə biləcəyik?..)

Əksər bələdiyyələrə yeni, müasir standartlara uyğun, içi gen-bol, kondisionerli avtobuslar verildiyi halda, Qardabani sakinləri yenə də yolda sökülüb-tökülən, cındırından cin ürkən özəl mikroavtobusların umuduna qalıb istidə, qarda, yağışda yollarda saatlarla "marşrutka" gözləməli olurlar. Bu transport problemi tələbədən tutmuş paytaxt xəstəxanalarında müalicə alan körpə uşaqların, yaşlı insanların, işçilərin, bir sözlə, bütün Qardabani sakinlərinin illərdir həllini tapmayan preoblemlərindən biri, bəlkə də birincisidir.

Problemin nə qədər ciddi olduğunu görmək üçün bircə dəfə yola çıxıb bu "marşrutkalarla" Qardabanidən Tbilisiyə getmək kifayət edir. Yoxsa şuşələrinin qara plyonkasından içərisinə gün işığı düşməyən, kondisionerli ciplərlə işə gəlib, kondisionerli kabinetlərdə ayım gəlsin, günüm keçsin rejimində "işləməyə" nə var. Nənəmin sürücülük vəsiqəsi olsaydı bunu o da bacarardı.

Bilmirəm xoşbəxtlikdən, ya bədbəxtlikdən, transport problemi ilə bağlı (digər problemlərlə də bağlı) mənə xeyli şikayətini bildirən, narazılıq edən olub. Elə bil şəhərin meri mənəm. Qınamıram. Yəqin yazı-pozu ilə məşğul olanlara hələ də inam qalıb. Vallah, imkanım olsaydı, oliqarxdan-zaddan olsaydım, Qardabaniyə iki yeni avtobus alıb verərdim, sürücülərinin əməkhaqqını da özüm verərdim, təəssüf ki, özümə velosiped ala bilmirəm. Görünür Qardabani bələdiyyəsi də mənim günümdədir. Avtobus ala bilmirlərsə, heç olmasa bu "marşrutkalara" bir çəki-düzən versinlər, nəzarət etsinlər, qrafiklərinə əl gəzdirsinlər – vaxtı axşam saat 8-dən ən azı 10-na, 11-ə kimi uzatsınlar, sürücülərə insanlarla davranış qaydaları, etika ilə bağlı treninqlər keçsinlər, cərimələr tətbiq etsinlər. İnanın ki, elə bu cərimələrlə Qardabaniyə avtobus almaq olar. Nə isə, görünür Qardabani bələdiyyəsinin işçiləri bu istilərdə (elə soyuqlarda da) öz komfort zonalarını (kondisionerli ciplərini) tərk eləmək istəmirlər. Odey, Rustavi bələdiyyəsi Avropa standartlarına uyğun, Rustavi-Tbilisi istiqamətində sərnişin daşıyacaq 70 ədəd yeni avtobus alır. Mübarək olsun! Rustavi merinin sağ əli bizim merin başına!

Deyir, bütün yollar Romaya aparır. Bizim bu Nuh əyyamından qalmış "marşrutkalarla" adam kimi heç Qardabanidən qonşu Rustaviyə gedib-gələ bilmirik. Bizim yollarımızın da Romaya aparmasını istəyiriksə bu transport probleminə Qardabani meriyası mütləq bir əncam çəkməlidir.

# TƏMİZLİK İMANDANDIR



Problem bitmir ki, bitmir. Şəhər indi də zibilləri ilə danışılır. Məişət tullantıları vaxtında daşınmır. Plastik qablar ərzaq qalıqlarına, şüşə parçaları cırılmış pal-paltara, istifadə olunmuş uşaq bezləri kartof qabıqlarına qarışıb... Qardabaninin özündə, o cümlədən kəndlərində tullantılar xeyli müddətdir ki, toplanmır. Zibil konteynerləri aşıb-daşır, küçə heyvanları da zibili eşələyib lap yolla bir ediblər. Tullantıların yaratdığı xoşagəlməz mənzərə, dəhşətli iy zibil qutularına hələ 20 metr məsafə qalmış ürək bulandırır.

Bəzi kəndlərdə vəziyyət çox pisdir, üfunət iyisindən caamat evinin pəncərəsini aça bilmir. Şikayətlərinə isə baxılmır. İşçi olmadığını, heç kəsin çalışmaq isdəmədiyini bildiriblər. Dəfələrlə lazımı qurumlara zəng vurmuşuq, vəd edib gələcəklərini bildirirlər, gəlmirlər. Sadəcə mərkəzi yolun kənarındakı zibil konteynerləri boşaldılır. Heç kəs bu yola əlində zibil torbası ilə çıxmaq istəmir. Zibillərini evlərinin yaxınlığındakı və ya küçənin başında olan konteynerlərə atırlar.

Doğrudur, vaxt var idi zibil atmağa heç nə yox idi, hər kəs tullantıları ya toplayıb həyətdə yandırırdı, ya torpağa basdırırdı, ya da ki, hara gəldi atırdılar. Sonra aydınlanma yaşandı ki, təbiət qorunmalıdır, torpağa basdırılan zibil illərlə orada qalır, yandırdığımız tullantıların hisi, dumanı ciyərlərimizə dolur, ekologiya çirklənir... Bundan sonra dövlət əlini daşın altına qoyub zibil konteynerlərinin sayını artırdı. İndi addım başı hər yerdə zibil atmağa konteynerlər var. Buna baxmayaraq Gürcüstanda ətraf mühitin mühafizəsi baxımından kəskin problemlərdən biri hələ də tullantıların idarə olunmamasıdır. İllər keçdikcə vəziyyətin yaxşılaşmasına baxmayaraq, Tbilisidə və regionlarda hələ də bir sıra qeyri-qanuni zibilxanalara, çirklənmiş ərazilərə rast gəlirik. Plastik qablar, polietilen paketlər, saxlama müddəti ötmüş ərzaq məhsulları suların səthində üzür.

Tullantıların idarə olunmasında məsuliyyəti tam olaraq dövlətin üzərinə qoya bilmərik. Bu məsələdə hər bir vətəndaşın da məsuliyyəti çox önəmlidir.

Biz məktəbə gedib-gəldiyimiz zamanlar bəzən məktəbin arxa qapısından çıxıb, daha yaxındır deyə, o yoldan istifadə edirdik. Həmin o yolda böyük bir çuxur var idi. Təpəyə çıxanda bütün ətraf ərazi görünürdü. Uşaqlarla həmişə danışıb-gülərdik ki, ele bil Everest zirvəsidir, çıx ki, çıxasan, bitmir. Çıxdıqdan sonra oradan başımı qaldırıb xeyli göy üzünə baxardım, buludlar elə qəşəng görsənərdi ki, başımı aşağıya salıb ətrafa baxmaq istəməzdim. Çünki ətraf zibillik idi. Orada yaşayan insanlar sanki evlərinin hasarından bu yana zibillərini atırdılar. O qədər pis vəziyyətdə idi, böyük bir ərazi boşa istifadə edilmişdi. Bu mənzərə sadəcə ürəyimi ağrıdırdı. Nəinki nəzarətsiz atılan məişət tullantıları, ölmüş heyvanların cəsədlərinə də rast gəlmək mümkün idi. Ərazinin zibillənməsi oranı sahibsiz itlərin məskəninə çevirmişdi.

Zibil qabları məhəlləyə yerləşdiriləndən sonra bir az da olsa ətraf mühit təmizlənmişdi. İndi isə konteynerlər vaxtında boşaldılmadığından yenə ərazi çirkləndirilməyə başlayıb.

Bu cür insanlara irad bildirəndə, zibili yerə atmaq olmaz deyəndə, elə davranırlar ki, sən yalançı olursan, onlar doğru. Yaxud da zibil qutularının dolu olmasını səbəb kimi göstərirlər. Bu cür davranışlar da şəhərin küçələrində qalaq-qalaq zibillərin toplanmasına səbəb olur. İnsanlarımız başa düşmək istəmirlər ki, zibili, tullantıları müvafiq yerlərə qoymaq, ətrafı təmiz saxlamaq bir mədəniyyətdir.

İsveçdə zibil qıtlığıdır və hətta xaricdən zibil idxal edirlər. Çünki hökumət bununla bağlı məsələni o qədər mükəmməl şəkildə nizamlayıb ki, ölkədə zibil qıtlığı yaranıb. Əhali arasında daim maarifləndirmə işi aparılır və onlara tullantılardan düzgün istifadə yolları öyrədilir. Hər bir yaşayış binasının önündə 6 və ya 7 ədəd zibil qutusu var. Burada plastik materiallar, kağız, şüşə, karton, metal və digər materiallar ayrıca toplanır. Daha bir qutu isə təkrar emal edilə bilməyən tullantılar üçün nəzərdə tutulur. Orada hətta balaca uşaq da konfet kağızını yanlış konteynerə atmır. Uşaq bağçaları və məktəblərdə zibilin düzgün şəkildə çeşidlənməsi öyrədilir.

Düzdür, bizdə zibil qabları çeşid-çeşid olmasa da, ən azından zibil qablarımız var. Yaşadığımız mühiti təmiz saxlamaq bələdiyyənin borcu olduğu kimi, bir o qədər də bizim borcumuzdur. Biz təbiətin qayğısına qalaq ki, o da bizim qayğımıza qalsın. Axı təmizlik imandandır.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# SEÇKİLƏRƏ HAZIRLAŞAN GÜRCÜSTAN – QƏRBLƏ ŞİMAL ARASINDA SEÇİM DİLEMMASI



Gürcüstan çox ciddi imtahan qarşısındadır, Qərblə Şimal arasında seçim edəcək. Bu il oktyabrın 26-da Gürcüstan parlamentinə keçiriləcək növbəti parlament seçkiləri ölkənin bu kimi taleyüklü məsələsinin həllinə də ciddi təsir edəcək. Seçkinin nəticəsi həm də Gürcüstanın dövlət olaraq gələcək yolunu müəyyənləşdirməsini həll edə bilər.

Ölkə müstəqilliyini bərpa etdiyi gündən Rusiya ilə Qərb arasında seçim uğrunda mübarizə aparıb. Cənubi Osetiya və Abxaziyada separatizmin baş qaldırması bu seçimdə ikinci tərəfə inteqrasiyanın qarşısını alan başlıca maneə olub. Bu problem 2008-ci il hadisəsindən sonra daha da ağırlaşıb. Gürcüstanın bu iki muxtar respublikası özünü “müstəqil” elan edib və Rusiya da onları tanıyıb. Bununla da ölkənin siyasi vəziyyəti daha da ağırlaşıb. Hakimiyyətdə qərbmeyillilər olduğundan Avropa İttifaqı (Aİ) və ABŞ onunla daha sıx əlaqə saxlayıb, əməkdaşlığı inkişaf etdirməklə ərazi bütövlüyü məsələsinin həllini müəyyən dövrədək təxirə salmağa üstünlük vermişdi.

Ancaq milyarder Bidzina İvanişvilinin Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyasının hakimiyyətə gəlişi, Mixail Saakaşvilinin lideri olduğu Vahid Milli Hərəkat Partiyasının uğursuzluğu vəziyyəti şimallıların xeyrinə dəyişib.

Bu ilin mayında Gürcüstan parlamentinin “Xarici təsirin şəffaflığı haqqında” qanunu qəbul etməsi ölkədə siyasi qüvvələr arasında cəbhələşməni daha da qətiləşdirib. Prezident Salome Zurabişvili başda olmaqla Vahid Milli Hərəkat Partiyası birlikdə qanun qəbul edilməsinin qarşısını ala bilməyib. Prezident ona veto da qoymuşdu.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze bu istiqamətdə qəti fəaliyyət göstərəcəklərini əvvəldən açıqlamışdı: “Müxalif nümayişlərə baxmayaraq, bu qanun layihəsini qanuna çevirməkdə qərarlıyıq. Sosioloji araşdırmalara görə, əhalinin 80 faizindən çoxu qeyri-hökumət təşkilatlarının şəffaflığını, 60 faizdən çoxu isə sözügedən mövzu ilə bağlı qanun layihəsini dəstəkləyir”.

“Xarici təsirin şəffaflığı haqqında” qanun “Rusiya qanunu” kimi xarakterizə edilir. Bu qanuna əsasən, maliyyə vəsaitlərinin 20 faizdən çoxunu xaricdən alaraq yaradılan təşkilatlar “Xarici gücün maraqlarını güdən təşkilat” kimi qeydiyyatdan keçməlidir, əks halda, cərimələr ödənilməlidir.



Qeyd edək ki, ABŞ Konqresi qanunu gürcü xalqının hüquq və azadlıqlarını pozan başqa təşəbbüsləri geri götürməyəcəyi halda Gürcüstana sanksiyalar tətbiq edəcəyini bildirmişdi. Ştatlar bu ölkəyə münasibəti fundamental olaraq dəyişəcəyini gizlətməmişdi.

Ağ Evin Milli Təhlükəsizlik Şurasının Avropa məsələləri üzrə baş direktoru Maykl Karpenter xarici jurnalistlər üçün keçirdiyi brifinqdə deyib ki, ABŞ Gürcüstanla bütün əməkdaşlıq proqramlarını nəzərdən keçirməyə başlayıb: “Ümid edirik ki, Gürcüstan hökumətinin yeritdiyi strateji kursun dəyişməsinin şahidi olacağıq”.

Bundan əvvəl Pentaqon keçən həftə 2024-cü ilin yayında keçirilməsi planlaşdırılan ABŞ-Gürcüstan birgə təliminin strateji münasibətlərin nəzərdən keçirilməsi səbəbindən qeyri-müəyyən müddətə təxirə salındığını açıqlayıb.

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrel isə bu günlərdə bildirib ki, məlum qanun Gürcüstanı Aİ-dən ayırır: “Hökumət siyasi kursunu dəyişməzsə, Gürcüstan Avropa ittifaqı yolunda irəliləməyəcək”.

Onun sözlərinə görə, qurum Gürcüstanla siyasi təmasları ixtisar edəcək və rəsmi Tbilisiyə maliyyə yardımını donduracaq.

Qərb sanksiyaların tətbiqinə artıq başlayıb. Aİ-nin Gürcüstandakı səfiri Pavel Herçinski Tbilisidə keçirilən beynəlxalq konfransda bildirib ki, ölkənin ittifaqa inteqrasiya prosesi dayandırılıb. Onun sözlərinə görə, "Xarici agentlər haqqında" qanun qüvvəyə mindiyindən Gürcüstan Müdafiə Nazirliyinə 30 milyon avro ayrılması məsələsi də təxirə salınıb.

Prezident Salome Zurabişvili Gürcüstanın Avropa İttifaqına inteqrasiya prosesinin və 30 milyon avroluq maliyyə yardımının dayandırılması ilə bağlı qeyd edib ki, Aİ-nin atdığı addım hökumətin anti-Avropa və anti-Qərb ritorikasına, hərəkətlərinə, hakim partiyanın yarıtmaz və düşmənçilik siyasətinə cavabdır.

Bir müddət öncə Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili Qərbin sərt davranışı ilə bağlı belə münasibət bildirib: “Çox təəssüf ki, bu gün nə ABŞ, nə də bəzi Avropa ölkələri Gürcüstandakı təsirlərinin şəffaf olmasını istəmir”.



O deyib ki, bu istiqamətdə şəffaflığın bəzi xarici ölkələrin maraqlarına uyğun olmaması təbiidir: “Qanun gürcü xalqının maraqlarına uyğundur. Konqres şəffaflığın təmin edilməsi əvəzinə, Milli Demokratiyaya Dəstək Fondunu gizli şəkildə maliyyələşdirir. Bu zaman isə Gürcüstandakı siyasi partiyalar və radikal qruplar əksinə, gizli xərcləmələri təşviq edirlər”.

Gürcüstan hökuməti və onun sponsoru İvanişvili Qərblə münasibətləri saxlayacaqlarını bildirsə də, görünür, bu əlaqələrin, əməkdaşlığın aydınlaşması üçün payızı gözləməyə ehtiyac qalmayacaq.

Hakim partiya təkzib etsə də, Gürcüstan Rusiya ilə diplomatik münasibətləri bərpa etməyə hazırlaşır. Bu istiqamətdə münasibət 2008-ci il avqustun 8-də Abxaziya və Cənubi Osetiya ilə bağlı baş verən hadisələrdən sonra pozulmuşdu. Tərəflər arasında münasibətlərin yumşaldığını faktlar da təsdiqləyir. Rusiya Prezidenti Gürcüstan vətəndaşlarına viza rejiminin ləğv edilməsi və iki ölkə arasında birbaşa uçuşlara tətbiq edilən qadağanın aradan qaldırılması ilə bağlı sərəncam imzalayıb. Salome Zurabişvili bunu “təxribat” adlandırsa da, ovaxtkı Baş nazir İrakli Qaribaşivili rəsmi Moskvanın bu addımını alqışlayıb.

Gürcüstanın Avropa İttifaqı ilə əlaqələri artıq çat verib. Bu, həm də rəsmi Tbilisiyə və gələcəkdə isə dövlətə etimada zərər verəcək. Gürcüstanın siyasi, iqtisadi əlaqələri kəskin şəkildə dəyişməsi ölkənin avrointeqrasiyasına mane olacaq. Seçkidə İvanişvilinin partiyası qalib gələrsə (onun bu siyasi kampaniyanı udacağı ehtimalı daha çoxdur), Gürcüstanın Cənubi Qafqazda yenidən Rusiyanın plasdarmına çeviriləcəyi gözlənilir. Bu baxımdan, bölgədə təzadlı vəziyyət yaranıb.

Ermənistan Qərbə inteqrasiya etmək üçün Rusiya ilə münasibətləri pozmağa, ondan uzaqlaşmağa çalışır, ancaq Gürcüstan torpaqlarında iki “dövləti” “tanıyan” Rusiyaya yenidən yaxınlaşmaqla avrointeqrasiyadan imtina etməyə hazırlaşır.

Bu iki dövlətin belə davranışı perspektivdə regionda da problemlər yarada bilər. Güclərin mübarizəsindən bir qayda olaraq ən çox ziyan çəkən zəiflərdir. Qərblə Şimal arasındakı qarşıdurmadan Ermənistan və Gürcüstanın uğur qazanacağı ehtimalı azdır. Çünki, ən azından, hər iki ölkənin iqtisadiyyatı daha çox asılı vəziyyətdədir...



*Mənbə: report.az*

*Təhlil etdi:* ***Sədrəddin İSMAYILOV***

# PREZİDENTİN SƏRƏNCAMI İLƏ "ALİ TƏHSİL HAQQINDA" QANUNDA DƏYİŞİKLİK EDİLİB



"Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinə 2026-cı ilə qədər onlayn universitet konsepsiyası/modeli və standartının hazırlanması tapşırılsın". Bu haqda Gürcüstan prezidenti Salome Zurabişvili tərəfindən imzalanmış "Ali təhsil haqqında" qanuna daxil edilmiş sərəncamda qeyd olunub.

Sərəncamda həmçinin elektron təhsilin nə olduğu açıqlanıb: Ali təhsil müəssisəsi tərəfindən Gürcüstan ərazisində tələbələrin/müəllimlərin hazırlanması üzrə təhsil proqramı, xüsusi müəllimin, baytarın hazırlanması, yaxud gürcü dili hazırlıq təhsil proqramına qəbul edilmiş şəxslər üçün Gürcüstanda akreditasiyadan keçmiş ali təhsil proqramına kvalifikasiyanın əldə edilməsi üçün təşkil edilmiş, müasir, lisenziyalı, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan təhsil prosesi. Elektron təhsilin həyata keçirilməsi üçün kurikulumun planlaşdırılması, tədris prosesinin təşkili və idarəetmə yanaşmasından, metodlardan istifadə etmək mütləqdir.

Elektron təhsil ali təhsil proqramında təhsil prosesinin, yaxud onun bir hissəsinin müasir elektron vasitələrinin – təhsil prosesinin idarə edilməsinin elektron sistemdən istifadə edərək həyata keçirilməsini nəzərdə tutur.

Təhsil prosesi idarəsinin elektron sistemi müasir, lisenziyalı, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan təhsil prosesinin təşkili və idarə edilməsi, eləcə də təhsil materiallarının çatdırılması üçün tələbənin (cəzaçəkmə müəssisələrinə yerləşdirilmiş tələbələrdən başqa) tələbə ilə, yaxud təhsil müəssisəsinin heyəti ilə ünsiyyət, interaksiya, tələbələrin qiymətləndirilməsinin obyektiv, şəffaf, ədalətli həyata keçirilməsi, onlara məsləhət verilməsi, tələbə inkişafının monitorinqi, başqa məqsədlər üçün istifadəsini təmin edir.

Elektron təhsil sinxron ünsiyyət formasında həyata keçirilir və ünsiyyətin eyni vaxtda həyata keçirilməsini nəzərdə tutur.

Həmin maddənin birinci bəndi ilə nəzərdə tutulmuş elektron təhsilin həyata keçirilməsi üçün ali təhsil müəssisəsi elektron təhsilin müasir, lisenziyalı aplikasiyasının/platformasının seçilməsini və tədris prosesinin interaktiv idarə edilməsi üçün istifadəsini təmin edir.

Təhsil sahələrinin klassifikasiyası ilə nəzərdə tutulmuş sahələrin siyahısını, eləcə də ali təhsil proqramı kreditlərinin maksimum sayını Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin təqdimatı ilə nazir təsdiq edir. Həmin kreditlər çərçivəsində təhsilə yol verilir.

# MƏKTƏBLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ QAYDASINDA DƏYİŞİKLİK EDİLİB



"Ümumi təhsili maliyyələşdirmək üçün bir şagird üçün nəzərdə tutulmuş maddi normativ və ona uyğun standart vauçer sayının müəyyən edilməsi haqqında" hökumət sərəncamında dəyişiklik edilib.

Sənədlə müəyyən edilib ki, ictimai məktəblər 1-dən 8-ci sinif də daxil olmaqla, 170-205 şagirdi olan məktəblərə bir şagird üçün 375 lari, eyni sayda şagirdi olan dağlıq məntəqədə yerləşən məktəblər üçün isə 615 lari maliyyələşdiriləcək.

**Maliyyələşdirmə aşağıdakı kimi həyata keçiriləcək:**

***1-ci sinifdən 8-ci sinfə qədər:***

ა.ბ) Şagird sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 345 lari;

ა.ბ1) Şagird sayı 206-dan 299-a qədər olan, dağlıq məntəqədə yerləşən ictimai məktəblər üçün – 570 lari;

ა.გ) Şagird sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 255 lari;

ა.გ1) Şagird sayı 300-dən 530-a qədər olan, dağlıq məntəqədə yerləşən ictimai məktəblər üçün – 420 lari;

ა.დ) Şagird sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 240 lari;

ა.დ1) Şagird sayı 531-dən 735-ə qədər olan, dağlıq məntəqədə yerləşən ictimai məktəblər üçün – 390 lari;

ა.ე) Şagird sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 210 lari;

ა.ე1) Şagird sayı 736-dan 1269-a qədər olan, dağlıq məntəqədə yerləşən ictimai məktəblər üçün – 330 lari;

ა.ვ) Şagird sayı 1269-dan artıq olan ictimai məktəblər üçün – 195 lari;

ა.ვ1) Şagird sayı 1269-dan artıq olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 300 lari;

***9-cu sinifdən 12-ci sinfə qədər:***

ბ.ა) Şagird sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 405 lari;

ბ.ა1) Şagird sayı 170-dən 205-ə qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 675 lari;

ბ.ბ) Şagird sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 375 lari;

ბ.ბ1) Şagird sayı 206-dan 299-a qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 630 lari;

ბ.გ) Şagird sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 285 lari;

ბ.გ1) Şagird sayı 300-dən 530-a qədər olan, dağlıq məntəqədə yerləşən ictimai məktəblər üçün – 480 lari;

ბ.დ) Şagird sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün - 270 lari;

ბ.დ1) Şagird sayı 531-dən 735-ə qədər olan, dağlıq məntəqədə yerləşən ictimai məktəblər üçün – 450 lari;

ბ.ე) Şagird sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 240 lari;

ბ.ე1) Şagird sayı 736-dan 1269-a qədər olan, dağlıq məntəqədə yerləşən ictimai məktəblər üçün – 390 lari;

ბ.ვ) Şagird sayı 1269-dan artıq olan ictimai məktəblər üçün – 225 lari;

ბ.ვ1) Şagird sayı 1269-dan artıq olan, dağlıq məntəqədə yerləşən ictimai məktəblər üçün – 360 lari.

# MÜƏLLİMLƏR SXEMİNDƏ ÜÇ ƏSAS DƏYİŞİKLİK EDİLİB




Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinin məlumatına əsasən, müəllimlərin peşə inkişafı və karyerada irəliləmə sxemində dəyişikliklər həyata keçirilib.

Pedaqoqların yeni əməkhaqqı sisteminin tətbiq edilməsindən sonra müəllimlərin peşə inkişafı və karyerada irəliləmə sxeminin təkmilləşdirilməsi istiqamətində fəal işlərə başlanılır. Bu məqsədlə Gürcüstanın təhsil, elm və gənclər naziri tərəfindən xüsusi inklüziv komissiya yaradılıb. Komissiya cari ilin sonuna qədər müəllimlərin peşə inkişafı və karyerada irəliləmə sxeminin təkmilləşdirilmiş modelini təqdim edəcək. Yenilənmiş sxem beynəlxalq tövsiyələrə, milli təcrübənin analizinə, araşdırmalara əsaslanır.

***Yuxarıda qeyd olunanlardan irəli gələrək, mövcud sxemdə sonrakı dəyişikliklər həyata keçirilib:***

• 2025-ci ilin 1 yanvarına qədər sxemin aparıcı, mentor və xüsusi müəllim statuslarının verilməsi yollarının tənzimləndiyi maddələrin qüvvədə olması dayandırılıb.

• Məktəbin bazasında müəllimin peşə inkişafı sisteminin tətbiq edilməsi və müəllimlərin maraqlarına uyğunlaşdırılmış xidmətlərin təklif edilməsi məqsədi ilə sxemdə müəllimin/xüsusi müəllimin məcburi təlimlər keçməsini müəyyən edən maddə dayandırılıb.

• Ümumi qabiliyyət imtahanını vermiş və portfolio təqdim etməyən, yaxud portfoliosunda səhv olan müəllimə 2024-2025-ci tədris ili başlayana qədər portfolionun qorunma imkanı veriləcək.

Müəllimlərin peşə inkişafı və karyerada irəliləmə sxeminin yeni modeli müəllimin maraqlarına uyğun sistemin yaradılması və məktəb cəmiyyətinin maksimum iştirakına istiqamətlənəcək.

Müəllimin peşə inkişafı və karyerada irəliləmə sxeminin yeni modeli üzərində işləmək qərarı beynəlxalq təcrübənin analiz edilməsinə, Milli Təhsil Araşdırmaları Mərkəzi tərəfindən aparılan araşdırmalara və məktəb cəmiyyəti tərəfindən qəbul edilən rəyə əsaslanır. Həmin araşdırmalar nəticəsində sxemin yenidən baxışa və inkişafa ehtiyacı olduğu aydın olub.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*

*Gürcü dilindən tərcümə etdi:* ***Aynurə ƏLİYEVA***



# UÇAN DİVARLARIN XATİRƏLƏRİ

Baba yurdu yeni ev timək üçün sökülürdü, hansı ki, nənəm o evə gəlin gəlmişdi. Hamı gözaydınlığı verərkən nənəmin kövrəldiyini hiss etdim. Qohumlar bunu sevinc göz yaşları kimi qiymətləndirdilər. Nənəm bir bəhanə ilə bağçaya tərəf getdi. Az sonra arxasıyca getdim. Nənəm bir ağaca söykənib gizlicə ağlayırdı, uzaqlara baxırdı. Belə baxışa kənddə "gözləri yol çəkir" deyirdilər. Məni görəndə bunu gizlətməyə çalışdı. Təəccüblü baxışlarımı görüb dedi: "Çox söyünürəm, a bala, amma divarlar üstümə gəldi. Elə bil daşlar dil deyir. Nəsə kövrəldim..."

Düzü, mən onda bunu o qədər də anlamamışdım.

O vaxtdan illər keçib. Nənəm də sağ deyil, amma bu gün qarşılaşdığım bir xatirə nənəmi yada saldı.

Bir yığıncağa gedirdik. Yolum oxuduğum məktəbin küçəsindən keçdi. Məktəbin yeni tikinti üçün müvəqqəti başqa məktəbə köçrüldüyünü bilirdim. Məktəbin küçəsindən keçəndə ekskavatorun yarımsökülüdə işlədiyini gördüm. Maşını saxlatdım. Dayanıb maşından söküntüyə tamaşa edirdim. Gözlərim yol çəkirdi. Həə, deyəsən divarlar üstümə gəlirdi, daşlar dil deyirdi. Göz yaşlarımı saxlaya bilmədim. Yoldaşım "sevincindən ağlayırsan yəqin, deyirlər bərabəri olmayan məktəb olacaq" deyərək mövzunu müsbətə yönəltmək istədi. Mən göz yaşlarımı silib kirimişcə pıçıldadım: "Xatirələrimi uçurdular..."

Yoldaşım dedi: "Sadəcə sən hər şeydə bədiilik axtarırsan. Adi bir haldır. Gündə minlərlə bina sökülür".

Mən dinmədim, yadıma nənəm düşdü. Gec də olsa onu indi daha yaxşı anladım, anladım ki, hələ mənim dişimlə, dırnağımla yaratdığım evim deyildi, ictimai idi, mənim yox, bizim idi... Mənim xatirələrim əməyimin yox, zehnimin yadigarı idi. 11 il hər gün sevinclə getdiyim doğma məktəbimin xatirələri idi məni kövrəldən. Nənəm demiş, divarlar üstümə gəldi. Hörmətlə xatırladığım ocağın xatirələri qədər müəllimləri də müqəddəs idi mənim üçün.

Bu o məktəb idi ki, hər addımımda adını ucaltmışdım. Sanki 11 il bir film icmalı kimi yaddaşımdan bir anlıq keçdi – işıq sürətiylə. Məktəbimizdə yaratdığım "Təbriz" radio jurnalının sədası bir neçə il çəkmişdi. Şagirdlərin davamiyyətini, nizam-intizamını, üstünlüklərini obrazlı şəkildə hər şənbə təqdim edirdim. 15 dəqiqəni 15 saat narahatlığı ilə dinləyən şagirdlər də vardı, həftəni maraqla övladından hesabat istəyən valideynlər də. Kəndimiz böyük idi, məktəb ətrafı səs çatırdı, qıraqlar isə "Ortalıq" dediyimiz mərkəzə yığılırdı, həyəcan və maraqla gözləyirdi hər kəs. Şou proqramların hələ olmadığı bir zamanda mən bunu öz şagird dünyagörüşümlə bir Borçalı kəndində yaratmışdım. Məktəbimin uçurulan divarları o səsi qulağımda dayanmadan təkrar edirdi: "Diqqət, diqqət! Danışır Ağməmmədli orta məktəbinin "Təbriz" radio qovşağı". Beləcə radiomuzun səsi ilə icmala başlayardım. Bütün kənd üçün valideyn iclası idi sanki. Uşaq yaşımda nə qədər dost, düşmən qazanmışdım...

Məktəbimizin ikinci mərtəbəsinin böyük dəhlizində "9 Aprel – 20 Yanvar" foto sərgisi yaratmışdım. Atam Bakıdakı bütün qohum, tanışlara xəbər etdi, Bakıdan xeyli qəzet, jurnal yolladılar. Hər iki Respublikanın azadlıq yolunda faciəsini əks etdirirdi sərgim. Sərgimin əks-sədası Tbilisiyə də çatmışdı.

Hələ VII sinifdə oxuyarkən Qələbə Günü söylədiyim " Ana və poçtalyon" şeiri ilə veteranları ağlatmağım xeyli danışılmışdı. Hətta televiziyada da xronika getmişdi. Təəssüf ki, onda indiki kimi paylaşmaq yox idi. Mahnı, rəqs, dram dərnəkləri – bunlar bir yana, "Dan ulduzu" adlanan Gürcüstan Yazıçılar Birliyinin Azərbaycan bölməsinin ədəbi birliyinin üzvi idim – 12 yaşlı ən kiçik nümayəndəsi. Hətta qəzetdə yazılarım da çıxardı. Ən kədərli tərəfim də o idi ki, yazılarıma ciddi baxmırdılar, anamı tanıyanlar düşünürdülər ki, o yazır, ya yönəldir, tanımayanlar da hesab edirdilər ki, haradansa düzüb-qoşuram. Çox təəssüf ki, bu keçid dövrü dediyimiz zamanları əhatə edirdi, amma elə bu gün də uşaqlarımın yaradıcılıq işlərinə mənim müdaxiləm kimi baxanlar var, sadəcə indi istedadı nümayiş etdirmək üçün hər cür şərait var. Mənim kimliyimi bir anam, atam, bir də müəllimlərim dəqiq bilirdilər. Bir də, bu gün o ekskavatorun caynaqları arasında ovulan məktəbimizin divarları...

Mən bu gün elə bu andaca böyük nənəmi daha yaxşı başa düşürdüm. O, nə qədər güclü imiş, amma mən hönkürərək ağlamaq istədim. Dünyasını dəyişən müəllimlərim üçün ağlamaq istədim, arxa partada oturmaq istədiyim halda məni hökmlə ön partada oturtmaq istəyən nənəm üçün ağlamaq istədim. "Bax, hərfləri gözəl yaz, o sənin xəttin olacaq, nə qədər səliqəli, gözəl olsa ömrün də elə qəşəng olacaq" deyən anam üçün ağlamaq istədim... Sonra gözümü sildim. Həyat davam edirdi. Geri baxdım, məktəbin önündə, məndən arxada məscid vardı, amma mən xeyli gerini gördüm. Anam da yox idi, anam qədər neçə əzizlərim də, amma var olanlar da vardı, varlığına sevindiklərim də. O divarlar mənim xatirələrim idi, uçdu, dağıldı, amma xatirələrimdə mən yaşayacağım qədər yaşayacaq...



Məktəbimin yerində yeni xatirələri yaşatmaq üçün yeni divarlar ucalacaq.

Yeni yolun mübarək, mənim kəndim, mənim məktəbim!

Arzu edirəm sənin də divarlarında elə xatirələr yazılsın ki, dastan olsun!

Yaşayacağım ömrün hər günündə səninləyəm!

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# AZƏRBAYCAN QADINI – MİLLİ RUHUMUZUN MEMARI



Çağdaş dünyada və cəmiyyətlərdə qadının rolu artmaqdadır. Vətəndaş cəmiyyətində olan dəyişikliklər qadınlara və onların cəmiyyətdə tutduğu mövqeyə təsirsiz qalmır. Qadınlar həyatın müxtəlif sahələrində fəal və yaradıcı rol oynayırlar. Ailədə qadının rolu və funksiyaları ənənəvi əhəmiyyətini itirərək başqa forma və məzmun alıb. Müasir dünyada qadının rolu artıq ailə və uşaq üzərində qurulmayıb. Qadın ana, həyat yoldaşı, ailə təsərrüfatını aparan, uşaq tərbiyəsi ilə məşğul olmaqla yanaşı ictimai həyatda da paralel şəkildə iştirak edir. Onlar daha müstəqil olaraq özlərini ailədən kənarda da reallaşdırmağa nail olublar. Bu, qadının cəmiyyətdə tutduğu mövqeni dəyişdirir. Qadınlar artıq həyatın müxtəlif sahələrində, eləcə də texnologiyalar və tərəqqi yönümlü işlər görürlər. Ancaq bütün bunlar qadının cəmiyyətdə tutduğu ən önəmli rolunu – ana rolunu dəyişmir. Məhz bu səbəbdən qadının bəşəriyyətə həyat verməsi funksiyası əvəzsizdir.

Zəngin tariximizin müxtəlif dönəmlərində qadınlarımızın rolu əvəzsizdir. Qəhrəmanlıqla dolu keçmişimizə nəzər salsaq görərik ki, tariximizi təkcə oğullarımız deyil, qadınlarımız da yaradıblar. Qadınlarımızın ictimai-siyasi fəallığı çoxəsrlik tariximizə söykənən ənənələrlə də bağlıdır. Tariximizə, mədəniyyətimizə, milli və mənəvi irsimizə əvəzsiz töhfələr vermiş qadınlarımızın adları milli yaddaşımızda unudulmaz iz buraxıb. Qədim zamanlardan bəri Vətənə, torpağa sədaqəti ilə seçilən qadınlarımız həmişə milli məfkurəyə sadiq qalaraq bu gün də onun güclənməsi naminə töhfə verirlər.

Qadınlarımız ana olmaqla xalqımızın taleyini, aqibətini yaradan memardırlar. Azərbaycan qadınının cəmiyyət üçün yetişdirdiyi milli, vətənpərvər ruhda, sağlam əqidədə böyüyən övladları xalqımızın gələcəyi üçün ən böyük nemət, ən böyük töhfədir. Çoxəsirlik tariximizə nəzər salsaq onun hər bir səhifəsində Azərbaycan qadınının əvəzsiz rolunu görəcəyik. Zəngin tariximizin, milli mədəniyyətimizin, mənəvi irsimiz olan Azərbaycan türkcəsinin gələcək nəsillərə ötürülməsi qadınlarımızın zərif çiyinlərinə düşən yük olub və olmaqdadır. Milli sərvətimiz olan ana dilimizi ana laylası ilə övladlarının ruhuna ötürən analarımız, nənələrimiz olub. Adət-ənənələrimiz, musiqimiz, mədəniyyətimiz məhz qadınlarımız tərəfindən gələcək nəsillərə ötürülüb. Azərbaycan qadını zəngin milli-mənəvi sərvətinə sədaqət göstərərək onu qoruyur və daha da zənginləşdirir. Vətənə, torpağa sədaqəti ilə seçilən qadınlarımız həmişə milli kimliyimizə sadiq qalaraq bu gün də onun güclənməsinə öz töhfəsini verirlər.

Müasir dünyamızda ənənəvi ailə modeli öz yerini itirsə belə Azərbaycan qadını milli dəyərlərimizə, adət-ənənələrimizə sadiq qalaraq milli kimliyimizi onun daşıyıcısı olan gələcək nəsillərə çatdırılması üçün böyük fədakarlıq göstərir.

**Leyla YUSİFOVA**

*Vətəndaş təhsili fənni üzrə müəllim*

# AVROPA ÇEMPİONATI GÜNLƏRİNƏ SÖZARDI



Bu mövzu barədə çoxdan düşünsəm də, qismət indiyə – futbol üzrə Avropa çempionatı günlərinə, final fitinin eşidilməsinə bir neçə gün qalmışa təsadüf edir. Bu çempionat bizim üçün ölkəmizin qrupdan çıxaraq səkkizdə bir oyunlarında iştirak etməsi ilə də əlamətdar oldu.

Bir cümləylə deyim ki, futbol kütləvi oyundur, kütləvi olduğu qədər də kütlələrin sevimli əyləncəsidir.

Mən yuxarıda bir neçə cümləylə ərz etdiklərimi bir kənara buraxıb müasir futbol barədə başqa bir baxış bucağından söhbət açmaq niyyətindəyəm.

Futbol futboldurmu və ya futbol təkcə idmandırmı? Futbol çoxdan futbol olmaqdan çıxıb. Futbol artıq on illərdir idmandan çox siyasi alət kimi çıxış edir. Bəzən bir ölkənin daxili və xarici siyasətinin əsas ünsürü rolunu oynayır.

Futbol böyük dünya təsərrüfatının tərkib hissəsidir.

Futbol biznesdir, həm də çox böyük bir ticarətdir.

Futbol bir ölkənin daxili ziddiyyətlərini dondurmağa, milli məsələni klublararası azarkeşlik səviyyəsinə qədər endirmək gücünə sahibdir. Çoxmillətli ölkələrdə milli məsələnin dozasını öldürmək üçün futbol oyunlarından bir platforma kimi istifadə olunması adi hal alıb. Bunun örnəyini biz İspaniyada, İranda görə bilərik. Əsas milli problemlər futbol vasitəsilə arxa plana keçirilir, milli təəssübkeşlik, milli mücadilə futbol meydançası ilə məhdudlaşdırılır. Milli klublarına tərəfkeşlik edənlərin millətçiliyi bəzən bu müstəvidən kənara çıxmır. Bir-iki örnək verim. Futbol insanları idarə etmək vasitəsidir. Cəmiyyətin enerjisini boşaltma yöntəmlərindən biridir. Çoxmillətli İspaniyanı idarə etmək üçün ucuz şərabla korrida qədər futbolun rolu da əvəzsizdir. İranda Təbrizin "Traxtor" komandasının Azərbaycan türklərinin milli enerjisinin kiçik bir sahəyə pərçimlənməsi üçün düşünülmüş layihə olduğunu söyləmək bir o qədər də çətin deyil.

Futbol və xarici siyasət bir-birindən ayrılmazdır. Belə olmasa prezidentlər, hökumət başçıları stadionlara niyə yol alır? Ən ümdə xarici səfərlərini təxirə salıb, ertələyənlər də olur. Bu da futbolun siyasətin ayrılmaz bir parçası olduğunu təsdiqləmirmi?

Müasir futbol adama quldarlıq cəmiyyətinin qladiator oyunlarını da xatırladır. Buna inanmanız üçün davamını yeni abzaslara keçirməli oluram.

Futbol klubları oyunçuları əlcək kimi dəyişir, istəyəndə satışa çıxarır, istəyəndə icarəyə verir. Biçarə futbolçu cınqırını da çıxara bilmir. Heyvan başından, insan dilindən demirlərmi? Onu dilindən bağlayıblar. Bir sürü adam ona göz dikib, onun qazancına ortaqdır – klub sahibindən tutmuş mərc oyunlarının aludəçisinə qədər. Klubla kontrakt imzalamış futbolçu klubun əmlakına, inventarına çevrilir. Klub onu hara qoysa orada durmaq, hara göndərsə ora getmək məcburiyyətini yaşamalıdır.

Qladiatorlar müharibələr zamanı ələ keçirilmiş hərbi əsirlər arasından seçilərək, Roma vətəndaşlarını əyləndirmək, onların kütləvi psixioz keçirmələrini təmin etmək üçün xüsusi təlim keçmiş döyüşçülər idilər. Bu gün Fransanın, Niderlandın, İngiltərənin, hətta Almaniyanın futbol komandalarına diqqət yetirsək, elə bil Afrika ölkələrindən birinin komandasını görürük. Afrika mənşəlilər Avropa üçün futbol oynayırlar, avropalılar onların oyununa tamaşa edərək, pivələrini qurtumlayıb, könüllərini əyləndirirlər. Oynayan kim, qalib elan olunan kim? Qədim Yunanıstanda keçirilən olimpiya oyunlarında da belə deyildimi? At yarışlarında atı çapanların başına yox, at sahiblərinin başına qalibiyyət çələnginin qoyulması adi norma idi.

Qladiator oyunlarında döyüşən tərəflərdən birinin məğlub olması, futbolda olduğu kimi, səs-küy yaradırdı, fit səslərindən, qışqırtıdan, uğultudan qulaq tutulurdu. Bəzən bu, məğlubun həyatı bahasına başa gəlir, qalibdən məğlubu öldürmək tələb olunurdu. Qalib tamaşaçıların alqış sədaları altında dünənə qədər dostluq etdiyi, bir qabdan su içdiyi, eyni süfrədə çörək kəsdiyi məğlubu öldürmək məcburiyyətində qalırdı. Tamaşaçıların ekstazı, transı sona qədər yaşamaları, günün həzzini son damlasınadək hiss etmələri üçün məğlub öldürülməli idi ki, qalib yaşasın. Öldürməkdən imtina qalibin özünün öldürülməsi ilə nəticələnə bilərdi.

Futbol bizə Avropa standartlarını xatırladır. Cızılmış xətdən kənara çıxmaq və xətdən kənarda səni gözləyən cəzaların ağırlığı. Müasir futbolun qaydaları Avropa qanunlarının makroməkandan mikroməkana köçürülməsidir. Futbol meydançasında tətbiq olunan qaydalar, çəkilmiş xətdən kənara çıxmalar, buna görə cəzalar Avropa standartlarının əyani nümayişidir. Futbolda qaydaların yenilənməsi, yeni cəzaların müəyyənləşdirilməsi, futbol hakimlərinin sayının artırılması da Avropa qanunlarında baş verən dəyişikliklərlə uzlaşır, nəzarət mexanizminin təkmilləşdirilməsiylə səsləşir.

Qadın hakimlərin meydanlara çıxması gender bərabərliyinin nümayişi və feminizmin təzahürü kimi görünür.

Yarışlarda texnoloji yeniliklərin tətbiqi də insanlara total nəzarətin kiçik ölçüdə nümayişi təsiri bağışlayır. Hər yerdə insanların hərəkətlərinin texnoloji izlənməsi, təqibi futbol meydançasında da davam edir.

Futbol və bukmeker kontorları ayrılmaz ikilidir. Birinin varlığı digərinin mövcudluğunu şərtləndirir. Qulağımızı tez-tez satılmış oyunlar barədə xəbərlər cırmaqlayır. Oyunçunun, klubun, məşqçinin, hakimin mərc oyunlarına girişdiyi haqqında məlumatlar tez-tez gündəmi zəbt edir. Az qala satılmamış oyun nadir nüsxəyə çevrilməkdədir. Bir oyunun satılması satıcıdan tutmuş alıcıya – hamının milyonlar qazanmasına, oyunun təmizliyinə şübhə etməyən sadə mərc azarkeşlərinin isə müflisləşməsinə gətirib çıxarır. Bundan sonra evini satana bax, borc bataqlığında boğulana bax, son çarə kimi intihara əl atana bax.

Klubların fantastik büdcələri. Bəzi futbol klublarının büdcəsi ortabab bir dövlətin illik büdcəsindən çoxdur.

Futbolçuların astronomik gəlirləri. Bir futbolçu karyerası boyunca nə qədər qazanır? Bəlkə də sualın qoyuluşu düzgün deyil. Yəni qazanc oyunçunun oyun səviyyəsi ilə mütənasib olduğundan biz söhbətin futbol aristokratiyasından getdiyini mütləq sualımızın gözünə qatmalıyıq, söhbətin titullu bir futbolçudan getdiyini mütləq qabartmalıyıq. Deyək ki, Messi, Ronaldo, Benzama, Mbappe, Dembele, Yamal, Arda Gülər səviyyəli bir futbolçu karyerası boyunca hər il, aşağı əllə götürsək, 50 milyon avro və ya dollar qazanır. On il oynaya bilsə bunun 500 milyon olacağı şəksizdir. Başı normal işləyən futbolçunun reklam çarxlarından da bir ətək pul qazandığını bunun üzərinə əlavə etsək onun illik qazancını yatırım şəklində bir neçə qata yüksəldə bildiyinin şahidi olarıq. Qısası, bir futbolçu ürəkdən istəsə on il ərzində sərvəti milyardları ötər.

Və mən müasir futbol barədə düşüncələrimə qəfil ara verib, oxucunun bu barədə düşünməsinə imkan vermək istəyirəm. Bu barədə oxucu nə düşünür, mənim fikirlərimlə razılaşırmı? Yoxsa mənim fikirlərimi bir çürük qozmu sanır? Deyim ki, bunu bilmək çox maraqlı olardı.

**Afiq MUXTAROĞLU**

# ALEKSANDRE ORBELİANİ - XATİRƏLƏR

*(əvvəli ötən sayda)*

Həmin vaxtlar o tərəflərdə Saqareconun mouravisi *(Mouravi – Qədim Gürcüstanda yerli idarəetmə məmuru. Məmur təsərrüfat, inzibati və məhkəmə funksiyalarını yerinə yetirirdi. Tavadların yurdlarının hakimi, əyalətin, şəhərin, kəndin müdiri. XVII əsrdən şəhərin mouravisi nəhayət şəhərin əmiri adını əvəz etmişdir – M.M.).* Çar İraklinin kürəkəni tavad Georgi Çoloğaşvili idi (Bundan sonra həmin bölgənin mouravisi atam idi – Yekaterinenin əri Georgi Çoloğaşvilinin ölümündən sonra bu ikisi Saqareconun mouravisi idilər. Bibimin oğlu Tadiya onda balaca idi, böyük olsa idi, sözsüz, Saqareconun mouravisi o olacaqdı. Onun mouraviliyi dədə-babadan onun evi idi). Və həmin vaxtlar onu da hiyləgərcəsinə oradan harasa göndərdilər və onun mouraviliyi elə oldu ki, oradan da hər şeyə qadir iki mindən çox süvari çıxırdı ki, çıxırdı. Çar İraklinin tərifəlayiq döyüşçüləri səbirsizliklə gözləyirdilər ki, əmr nə zaman gələcək, bizim İrakli ilə birgə yenə Vətənimiz uğrunda qan tökək və qızılbaşlara qılıncımızı bir daha göstərək. Bunun əvəzində Revaz Andronikaşvili guya şahzadə Georginin əmri ilə onların başqa yerə getməsini bəyan edib. Ona görə də atamın və onun bacısı Yekaterinenin yerindən tərpənmək xəbərinin Saqareco camaatına çatması elə də çox çəkmədi.

Bu bacı-qardaşlar bunu bir daha fikirləşmədilər: Revaz başqa cür bizə nəql edir və bunun üçün şəhərə bir adam göndərək, əsl əhvalatı oradan öyrənək. Onlar Revaz Andronikaşvilinin dediklərinin məhz elə möhür olduğunu düşünüblər, onu da heç soruşmayıblar ki, sən hara gedəcəksən, hansı tərəfə yönələcəksən. Elə həmin an dərhal dağ istehkamlarına doğru getdilər və Revaz isə özünün şeytanlığına görə Tiflis şəhərinə doğru gəldi ki, burada da, bəli, çar İraklini məhv etmək üçün onu çoxları qarşıladı. Mən burada tək-tək yalnız soyadları barədə heç nə demirəm ki, sadəcə olaraq çar İraklinin başına gələn bütün bəlalarda onlar günahkardırlar, niyə başı papaqlı bir adam gəlmədi və çar İrakli ilə birgə Vətən uğrunda qılınc çalmırdılar.

Yalnız iki min gürcü ilə qaldı və bununla yanaşı çar Soloman üç min İmereti qoşunu ilə Ağa Məhəmməd Şah Qacarın qoşunu ilə qarşılaşdı. Məgər Rusiyadan Araçnurt Arğutovun göndərdiyi qızıllar əvvəlcə çar İraklini və son vaxtlar bütün bizim doğma ölkəmizi satdırmadımı? Rəbb İsa Məsihi bir İuda satdı, bir çox İuda isə çar İraklini, Gürcüstan da daxil olmaqla, satdı – haqsız övladdan nəvə-nəticələrə qədər. Onların o xəyanətini onların övladları gördülər.

Bu, atamın ürəyini çox sıxırdı. O, dəfələrlə anama deyirdi: Mənim ondan sonra bir daha dincliyim yox idi. Mən ki, Revaz Andronikaşvilinin adi sözünə baxıb bacım Yekaterine ilə tez qaçsaydım. Elə bir gün keçmir ki, yadıma bu düşməsin. Xeyr, yaxşısı odur ki, mən çar İraklinin kürəkəni olmağa hazırlaşırdım və onun əvəzində həmin vaxtlar nəyi vəd etdiyini indi nəql edəcəyəm: Mən sənə Saqareconun mouraviliyini tez verəcəyəm, sənin bacın qızı Tadiya böyüyənə kimi sən Saqareconun mouravisi olacaqsan və balaca Tadiyanın da sahibisən. Onlar bütün saqarecoluları yaxşı tanıyırdı. Buna görə də mən və bacım Yekaterine Saqareco camaatını haylasa idi: Çar İrakli dərddədir, kömək edək, bütün saqarecolular üç min atlı döyüşçünü məhv edərdi və onda Ağa Məhəmməd Şah Qacar öz gününü görərdi. Bunun əvəzində mən öz çarıma, sonra özü də necə çara, bizim üçün əzabkeş İrakliyə xəyanət etdim və onda mən bilmirdim, bir şey anlaya bilmirdim. Revazın o əhvalatını ondan sonra, son zamanlar isə çar İrakli artıq daha olmayanda, o Revazın çar İrakliyə qarşı düşmənçiliyini hamı dedi. Beləcə və bu cür atam anama bəzən deyirdi. Anam da bu söhbətə daha çox əlavə edərdi. Ondan sonra daha nə baş verdisə mənim Ağa Məhəmməd Şah Qacarı təsvir etdiyim yazımdadır, lakin o, atamın ürəyini çox sıxdığından sonra nəsə işlər oldu, onu da deyək.

Gələk 1812-ci ilə; Kaxetidə qarmaqarışıqlar oldu, səbəbi nə idi? Bəziləri bu səbəbi deyir, bəziləri o səbəbi deyir, amma onların heç biri doğru deyil ki, bunu da mən qulağımla bəzən eşidirdim (Onda doğrudur, mən yeniyetmə idim, doqquz yaşında, lakin o dövrkü olayların heç birini unutmamışam, buna görə heç nəyi unutmamışam, bu cür şeyləri sevirdim). O dövrün böyük adamları atamın, anamın yanına gəlirdilər və kirimiş danışıqları, düzüb-qoşduqları var idi – rusları burdan necə rədd edək. Onların bu düzüb-qoşduqları gürcü Kaxetidə öz adamlarının ağzı ilə yayıldı və bunun



qayğısına qalırdılar.

Kaxetililər daha dözə bilmədilər, qəfildən əvvəlcə Tianetidə (Tianetidə rusun azca qoşunu var idi. Onlar bir qadının fədakarlığı ilə bu qoşunu qırmalı idilər), ondan sonra bütün Kaxetidə ixtişaş yaratdılar və bununla yanaşı təcili şahzadə Qızılbaşdakı *(yəni İrandakı – M.M.)* Aleksandrenin yanına adamlar göndərdilər və gəlməyini xahiş etdilər. Sonra onun barəsində də olacaq.

Rusiya hökuməti də buna çox üzüldü, deyəsən bunu casuslardan öyrəniblər. Axşam vaxtı idi ki, evimizin ətrafını bir dəstə saldat mühasirəyə aldı və bir topu da bir az yuxarıda, yüksəklikdə bizim evimizlə üzbəüz yerləşdirdilər. Biz buna narahat olduq.

Biz bundan narahat idik, nə baş verir. Bununla yanaşı, burada, Tiflis şəhərində ilk tavad övladlarını, onları öz evlərində yaxaladılar, yəni əl-qollarını bağladılar və elə həmin gecə də baş hakim Markiz Pavluç onların hamısını öz yanına gətizdirdi. Gah hədə-qorxu ilə, gah da nəvazişlə onlarla xeyli söhbət etdi və nəhayət onların hamısı hökmdara qarşı sədaqət andı içdi. Eyni zamanda o, hamısından vədlər aldı ki, elə həmin gecə rus qoşununun ardınca Kaxetiyə doğru gedəcəklər və sədaqətlə hökmdara xidmət edəcəklər, yoxsa sizin arvad-uşaqlarınızın başına pis işlər gələcək. Bundan sonra onlar nə etməli idilər?

*(davamı növbəti sayda)*

*Gürcü dilindən tərcümə edən:*
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com “ახალი გზა” საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUL
2024-CÜ İL
№ 13 (208)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANIN ÜMUMİ XARİCİ BORCU 24,5 MİLYARD ABŞ DOLLARI TƏŞKİL EDİB



2024-cü ilin birinci rübündə Gürcüstanın ümumi xarici borcu 24,5 milyard ABŞ dolları təşkil edib ki, bu da ümumi daxili məhsulun (ÜDM) 78,7 faizinə bərabərdir. Bu barədə Gürcüstan Milli Bankının saytında məlumat yerləşdirilib.

Məlumata əsasən, ümumi xarici borc 2024-cü il martın 31-nə 66,5 milyon ABŞ dolları, əməliyyat dəyişiklikləri ilə əlaqədar 275,8 milyon, digər dəyişikliklər nəticəsində 29,3 milyon, qiymət dəyişiklikləri ilə əlaqədar 1,2 milyon dollar artıb.

Bununla belə, milli pul vahidi larinin ABŞ dollarına nəzərən məzənnə dəyişikliyi əsasında xarici borcda 239,8 milyon dollar azalma qeydə alınıb.

Ümumi məbləğin 11,1 milyard dollarını dövlət borcu (ÜDM-in 35,5 faizi) təşkil edib. Lakin bunun da yalnız 8,5 milyard dolları xalis dövlət borcu, 861,3 milyon dolları Milli Bankın öhdəlikləri, qalanı isə dövlət müəssisələrinin borcudur.

Hesabat dövründə bank sektorunun borcu 7,5 milyard dollar, özəl müəssisələrin borcu 4,7 milyard dollar, şirkətlər arasında borc isə 3 milyard dollar olub.

Xarici valyutada olan borcun ümumi borcda xüsusi çəkisi 88,8 faiz təşkil edib.

## QUMAR OYUNLARI İLƏ BAĞLI QADAĞALAR SƏRTLƏŞDİRİLİB



Gürcüstanda qumar oyunları ilə bağlı qadağalar iyulun 1-dən sərtləşdirilib. Yaşı 25-ə qədər olan Gürcüstan vətəndaşları və 18 yaşına qədər olan xarici ölkə vətəndaşları, o cümlədən kazinolarda artıq icazə verilməyən qumar oyunlarında iştirakı qadağan edilən şəxslər qumar oynaya bilməyəcəklər.

Bu cür şəxslərin onlayn qumar oynamasına görə 10 min lari cərimə nəzərdə tutulub. Təkrar pozuntu qeydə alındıqda isə cərimənin məbləği 20 min lari olacaq.

Bundan əlavə, iyulun 1-dən internet-kafelər də onlayn qumar oyunlarının təşkili və keçirilməsinə görə cərimələnəcək. Belə bir hərəkətə görə cərimə 15 min lari, təkrar pozuntu isə 30 min lari olacaq.

Qeyd edək ki, 2021-ci ilin noyabrında Gürcüstanın ozamankı Baş naziri İrakli Qaribaşvili ölkədə onlayn kazinoların qadağan edilməsinin vacibliyini elan etmiş və bunun mərhələli şəkildə baş verəcəyini bildirmişdi.

Birinci mərhələdə hakimiyyət qumar şirkətləri üçün vergiləri 65-70 faiz artırıb, onlayn qumar oyunları üçün 25 yaşa qədər məhdudiyyət tətbiq edib, həmçinin qumar oyunları qadağan ediləcək şəxslərin məlumat bazasını tərtib edib.

Ölkədə 2005-ci ildə “Lotereyalar və qumar və uduşlu oyunların təşkili haqqında” qanun qəbul olunub. Kazinoların, totalizatorların, slot klublarının və digər əyləncə oyunlarının işi bu qanunla tənzimlənir.

## GÜRCÜSTAN DƏMİR YOLLARI İLƏ DAŞINAN YÜKLƏRİN HƏCMİ AZALIB



Ötən il Gürcüstan dəmir yolları ilə 13,6 milyon ton yük daşınıb, bu da 2022-ci illə müqayisədə 8,2 faiz azdır. Bu barədə məlumat “Gürcüstan Dəmir Yolu” Səhmdar Cəmiyyətinin (GDY) maliyyə hesabatında əksini tapıb.

Hesabatda bildirilib ki, yük dövriyyəsinin azalması əsasən tranzit daşımaların azalması ilə bağlıdır. 2022-ci ildə tranzit yüklərin həcmi 8,6 milyon ton olduğu halda, 2023-cü ildə bu rəqəm 7,7 milyon tona qədər azalıb.

Hesabat dövründə Gürcüstan ərazisindən dəmir yolu ilə daşınan yüklərin 47 faizi və 7,7 milyon tonu Rusiyadan göndərilib.

Tranzit yüklərin 26 faizi isə Azərbaycanın payına düşüb. Qalan yüklərin 34 faizi Türkmənistandan, 3,2 faizi Rumıniyadan, 2,8 faizi Bolqarıstandan, 2,3 faizi Türkiyədən, 1,3 faizi Belarusdan, 1,2 faizi isə Çindən göndərilib.

GDY ilə daşınan ümumi yüklərin 28,9 faizini mis filizi və digər mədən xammalı, 28,5 faizini kömür, xam neft və təbii qaz, 12,7 faizini isə qida və içkilər təşkil edib.

## YETKİNLİK YAŞINA ÇATMAYANLAR ARASINDA CİNAYƏTKARLIQ ARTIB



Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2024-cü il yanvarın 1-dən iyunun 1-dək Gürcüstanda yetkinlik yaşına çatmayan 252 nəfər cinayət məsuliyyətinə cəlb edilib.

Məlumata görə, cinayət məsuliyyətinə cəlb olunanların 207-si 14-18 yaş arasında olan oğlanlardır.

Cinayət məsuliyyətinə cəlb olunan yetkinlik yaşına çatmayanların 80 faizi oğurluqda ittiham olunur.

Qalanları isə sağlamlığa zərər vurma, soyğunçuluq və zorakılığa görə saxlanılıblar.

Mərkəzin məlumatına görə, yaşı 18-dən az olan 646 nəfər cinayətin qurbanı olub. Onlardan 281-i məişət zorakılığı, 90-ı seksual xarakterli cinayətlər, 87-si isə hədə-qorxuların qurbanına çevrilib.

Cari ilin beş ayında bir azyaşlı öldürülüb, ikisi isə son anda ölümdən xilas ola bilib.

## UEFA GÜRCÜSTAN FUTBOL FEDERASİYASINI 46 MİN AVRO CƏRİMƏLƏYİB

UEFA Gürcüstan Futbol Federasiyasını (GFF) 46 min avro cərimələyib. Bu barədə qitə futbol qurumunun mətbuat xidməti məlumat yayıb.

GFF Almaniyada təşkil edilən AVRO-2024-ün qrup mərhələsinin Türkiyə millisi ilə oyununda (1:3) gürcü azarkeşlərin pirotexniki vasitələrdən istifadə etməsi və iğtişaş törətməsi səbəbindən 36,25 min avro cərimələnib. Portuqaliya ilə görüşdə (2:0) isə azarkeşlər meydana çıxıb və pirotexniki vasitələrdən istifadə ediblər. GFF buna görə daha 9,75 min avro cərimələnib. Beləliklə, ümumi məbləğ 46 min avro olub.

Qeyd edək ki, Gürcüstan millisi debüt etdiyi Avropa çempionatının 1/8 finalında İspaniyaya məğlub olub (1:4).

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalık ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.